Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan xalqını Anım təntənələrinə gətirən ideoloji güc - Azərbaycançılıq...

## Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqilliyimizin bərpasının 30 ili - azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdi

**Azərbaycanın müasir tarixində dönüş nöqtəsi olan 2020-ci il 27 sentyabr rəşadətli Ordumuzun torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistanın növbəti təxribatına cavab olaraq əks-hücuma keçdiyi və 44 günlük Zəfər salnaməsini yazmağa başladığı tarixi gündür...**



Bir il əvvəl baş verən bu möhtəşəm hadisə Azərbaycan xalqının əzilmiş qürurunu sağaltdı, əyilən başını dikəltdi.

Bilsin ana torpaq, eşitsin Vətən
Müsəlləh əsgərəm mən də bu gündən...

Bu misralar hər kəsin dilində bir şüara çevirildi...

Uzun illər torpaqlarımızın düşmən işğalında olması faktı ilə barışmayan Vətən övladları, Milli Ordumuz 27 sentyabr da Ali Baş Komandan İlham Əliyevin əmri ilə "Dəmir yumruq" əməliyyatına başladı. Azərbaycan Silahlı Qüvvələri, Azərbaycan Quru Qoşunları, Xüsusi Təyinatlı qüvvələri, Azərbaycan Hərbi Dəniz Qüvvələri, Azərbaycan Dəniz piyadaları, Azərbaycan hərbi hava qüvvələri, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyi, Daxili Qoşunlar, Xarici Kəşfiyyat Xidməti, "YARASA" Xüsusi təyinatlıları, Naxçıvan Xüsusi Təyinatlı Qüvvələri, eyni zamanda minlərlə könüllü Vətən müharibəsində misilsiz Qəhrəmanlıqlar göstərdilər.

...Vətən müharibəsinin ilk saatlarında ordumuzun uğurlu əks-həmləsi və erməni işğalı altında olan yaşayış məntəqələrinin azad olunması, sonrakı günlərdə gələn qələbə xəbərləri xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Bütün bu qələbələr, təbii ki, canını Vətən yolunda fəda edən qəhrəman zabit və əsgərlərimizin misilsiz şücaəti, qanları bahasına qazanılırdı. 44 gün ərzində ordumuz illərdir həsrətində olduğumuz işğal altında olan torpaqlarımızı azad edərək Vətəni bütövləşdirdi, bizə Qələbə sevincini yaşatdı.

27 sentyabr 2 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Respublikamızsa Anım Günü kimi qeyd edilir.

### 27 sentyabr bizi birləşdirən möhtəşəm tarixi gün...

27 Sentyabr Anım Günü ölkəmizlə yanaşı dünyanın bir çox ölkəsində qeyd edildi. 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Şəhidlərin anım gününə həsr olunan və Neftçilər prospektindən başlayan yürüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həmin gün təməli qoyulan Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinədək davam edib.

Yürüşdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı Qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfərdən çox kursant və hərbi qulluqçusu iştirak edib.

Bu əzəmətli gün həm dünya azərbaycanlıları, həm də ölkəmizdəki müxtəlif millətlərin, dinlərin nümayəndələri qeyd etdi, kilsələrdə, sinaqoqlarda, məscidlərdə dualar oxundu, dini rituallar həyata keçirildi. 27 sentyabr Anım günü xalqımız həmrəyliyini, azərbaycançılıq ideologiyası ətrafında birləşdiyini bir daha təsdiqlədi. Paytaxtımızda keçirilən anım tədbirində Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı bu həmrəyliyi daha da gücləndirdi.

### "Xalqımız yenə də birlik nümayiş etdirdi"

Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli bizimlə söhbətində bildirdi ki, Vətən Müharibəsinin başlandığı ilk dəqiqələrdən Azərbaycan xalqı, dünya azərbaycanlıları həmrəylik nümayiş etdirdilər və torpaqlarımızın azad edilməsi uğurunda böyük birlik nümayiş etdirdilər. Q.Məhərrəmli dedi ki, 27 sentyabr tarixinin Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarında dalğalandırmış, ölkənin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərinə, bütün şəhidlərinə dərin ehtiram əlaməti olaraq, Anım Günü kimi keçirilməsinin özünün böyük tarixi əhəmiyyəti var. Q.Məhərrəmli bildirdi ki, Anım Günü ilə əlaqədar Azərbaycanda və xarici ölkələrdə sentyabrın 27-də bir sıra tədbirlər keçirildi və bütün xalqımız şəhidlərimizin əziz xatirəsini yad etdi: "Xalqımız yenə də birlik nümayiş etdirdi. Anım Günündə də vətəndaş həmrəyliyinin şahidi olduq. Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda şəhidlərin xatirəsi dərin ehtiramla yad olundu, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxundu. Saat 12:00-da ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Bütün bunların hamısının çox dərin mənası var".

### "Dövlət müstəqilliyimizin 30 illiyidir və artıq bizim ərazi bütövlüyümüz təmin olunub"

Q.Məhərrəmli qeyd etdi ki, Anım Günündə xaricdə yaşayan azərbaycanlılar da böyük həmrəylik göstərib. "Anım Günündə Prezidentin və Birinci vitse-prezidenin xalqın özündə getməsi və əllərində şəhidlərin şəkillərini tutması həm cəmiyyətimizdə, həm də dünya azərbaycanlıları arasında böyük ruh yüksəkliyi yaradıb. Budur həmrəyliyin, birliyin böyük təntənəsi, əzəməti. Prezident və Birinci vitse-prezident xalqın önündə gedərək anım yürüşünün böyük mənasını bir daha dünyaya çatdırdılar. Heç şübhəsiz ki, xaricdə yaşayan soydaşlarımız da Anım Günü ilə əlaqədar müxtəlif tədbirlər, yürüşlər keçirdilər. Bütün bunlar Azərbaycançılıq ideologiyasının gücünün təcahürüdür. Açıq görsəndi ki, xalqımızın nümayəndələri harada yaşamasından asılı olmayaraq hər zaman birlik və həmrəylik göstərə bilirlər. Bütövlükdə, 27 sentyabr Anım Günündə ölkəmizdə yaşayan bütün xalqların, dinlərin nümayəndələrinin bir yerdə olduğunu, həmrəylik göstərdiyinin şahidi olduq. Biz bunun dəfələrlə şahidi olmuşuq. Azərbaycanın ərazibütövlüyü uğurunda ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri şəhid verib, hər kəs azərbaycanlıdır və hər bir şəhid bizimdir. 27 sentyabr Anım Günündə hər kəs Azərbaycançılıq ideologiyası ətrafında birləşdi. Bu ili Azərbaycan dövlətinin müstəqilliyinin 30 ili tamam olur. Biz 28-29 il idi ki, torpaq həsrətində idik. Amma dövlət müstəqilliyimizin 30 illiyidir və artıq bizim ərazibütövlüyümüz təmin olunub və biz buna görə şəhidlərimizin ruhuna, qazilərimizin özünə borcluyuq. Azərbaycançılıq vahid bir ideologiya kimi öz birləşdiricilik gücünü həmişə qoruyur və nümayiş etdirir".

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**